**“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq, “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununu “Reklam haqqında” Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 405; 2001, 11, maddələr 689, 690, 12, maddə 736; 2002, 5, maddə 242; 2003, 1, maddələr 11, 16, 6, maddə 256; 2004, 1, maddə 10, 4, maddə 202, 5, maddə 314, 6, maddə 397; 2005, 2, maddə 62; 2006, 2, maddə 67, 11, maddə 923, 12, maddə 1005; 2007, 11, maddələr 1053, 1082; 2008, 5, maddə 354; 2009, 6, maddə 410; 2010, 3, maddə 173, 4, maddələr 275, 276; 2011, 2, maddə 71, 12, maddə 1074; 2012, 6, maddə 523; 2014, 8, maddə 956, 11, maddə 1376; 2015, 2, maddələr 77, 78, 5, maddə 485) 40-cı maddəsinin 1-ci hissəsində “küçə reklamlarına” sözləri “açıq məkanda reklama” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 noyabr 2016-cı il
415-VQD